Ədəbiyyat qəzeti

23 oktyabr 2021-ci il



# Mübarək Zəfər günümüz ağsaqqal yazçılarımızın gözüylə



Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar qurumun Ağsaqqallar Şurasının sədri, Xalq şairi Nəriman Həsənzadənin təşəbbüsü ilə oktyabrın 20-də AYB-də keçirilən tədbiri xoş, səmimi duyğularla açdı ki: "Bir il bundan əvvəl, tarixi Zəfər günümüzə qədər hamımızın qəlbində bir nisgil vardı. Bütün çıxışlarımızı, ədəbi-bədii yazılarımızı "gün o gün olsun" arzusu izləməkdəydi. Ali Baş Komandanımızın, xalqımızın və müzəffər Ordumuzun yumruq kimi birləşməsi bu arzumusu çin etdi. İşğal altında olan cənnət Qarabağımız azad olundu. Bu tarixi qələbə ədəbiyyatımızın növbəti mərhələləri üçün zəngin mövzu mənbəyinə çevrildi. Əlbəttə, tarixi ənənələrinə sadiq qalmaqla, Azərbaycan ədəbiyyatı həmişə insanları, toplumları humanizmə çağırıb. Tarix şahid oldu ki, erməni yazıçılarının qana, işğala sövq edən təbliğatı öz millətlərini necə bir qara günə çıxardı. Qarabağda qan töküləməsinin məlum və məlun ilhamçısı Zori Balayanın fitnəkarlıq örnəyi olan çıxışları qatı millətçi ideologiyasının mayası ilə yoğrulmuşdur. Azərbaycan yazıçıları isə bütün bu dövr ərzində baş verənlərə həmişə tarixi həqiqətlər prizmasından nəzər salıb, haqqı yazıb, insanlığı təbliğ edib. Bu dediklərim ağsaqqal yazıçılarımızın yaradıcılığında daha çox ifadə olunub. Çünki xalq tarixin çətin günlərində müdrik ziyalıların sözünə daha çox ehtiyac duyur".

Xalq şairi Nəriman Həsənzadə sentyabrın ilk günlərində Şuşada keçirilən Vaqif Poeziya günlərində yaşanan unudulmaz anlardan söz açdı. Təəssüf etdiyini bildirdi ki, "bizə düşmən çıxdı dost dediyimiz tarixin gör hansı mərhələsində". Qarabağsız keçən bu illər hər bir azərbaycan insanı kimi, şair və yazıçılarımızın da ağrılı yeri idi. Qəlbimiz qübar bağlamışdı, nisgil yaşayırdıq ki, "görəsən Ağdama yağış yağdımı, yoncaya, taxıla heç su çıxdımı", Şuşanın dağları qəribsədimi, Kəlbəcər, Laçında qartal nə çəkdi? Şükürlər olsun ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin polad iradəsi, birliyimiz və müzəffər Ordumuz bu nisgilə son qoydu. Yaşımın bu vaxtında bu tarixi qələbəni vəsf etmək imkanım oldu. Allahımdan, bəxtimdən çox razıyam...

Xalq yazıçısı Mövlud Süleymanlı qeyd etdi ki, Qarabağsız keçən hər ilimizdə, günümüzdə, anımıza belə qələbəmizə inanırdıq: "Bu qələbə bizim birliyimizdədir. Tarix sübut etdi ki, xalqımıza haqq yolunu tutmaq, səmimiyyət və yaddaş oyanışı lazımdır. Azərbaycan yazıçısının ən ümdə vəzifəsi xalqın yaddaş oyanışına xidmət işi olub. Tarixi Qarabağ torpaqları uğrunda apardığımız mübarizə və qazandığımız Zəfər gerçəkliyində yazıçılarımız bu missiyanı ləyaqətlə davam etdirib. Bu, bizim müdrikliyimizin, insanlığımızın ifadəsidir".

Akademik Teymur Kərimli vurğuladı ki, biz epoxal bir dövrdə yaşayırıq: "Bu, elə bir epoxadır ki, millətimizin qururu, vətəndaşlıq duyğusu və ənənəvi birlik hissi bütün dünyaya görk oldu. Zaman-zaman kitablardan oxuduğumuz, kino kadrlarından izlədiyimiz qəhrəmanlıq səhnələrinin şahidləri olduq, gerçək qəhrəmanların müasirlərinə döndük".

Xalq yazıçısı Çingiz Abdullayev "Qarabağ uğrunda canlarını fəda edən, son damla qanlarına qədər döyüşən qəhrəman oğullarımızın ünvanı ədəbiyyatımızın öygü yeridir. Biz o insanlara borcluyuq, onların xatirəsini əbədi yaşatmalıyıq"- dedi.

Xalq yazıçısı Natiq Rəsulzadə və akademik Nizami Cəfərov da öz növbələrində Azəpbaycan ziyalısının həmişə humanist missiya daşıyıcısı olduğunu qeyd etdilər. Vurğuladılar ki, bu istiqamətdə ağsaqqal yazıçı və şairlərimizin məqsədyönlü fəaliyyəti həmişə ictimaiyyət tərəfindən yüksək dəyərləndirilib.

"Milana hospital"ın təsisçisi və baş direktoru Xuraman Muradova, sözügedən hospitalın aparıcı mütəxəssisləri Səriyyə Hüseynova və Almaz İsmayıl tədbirdə çıxış edərək tarixi Qarabağ döyüşlərində yaralanmış, tibbi yardıma ehtiyacı olan əsgər və zabitlərimizə göstərdikləri təmənnasız xidmətlərindən söz açdılar: "Üç yüzdən çox əsgər və zabitimiz hospitalımız tərəfindən pulsuz müalicə olunub. Hospitalımız ən müasir avadanlıqlarla təchiz olunub. İmkanlarımız genişdir. Eyni zamanda tarixi döyüşlər zamanı cəbhə bölgələrimizə, əsgəri hisslərimizə davamlı humanitar yardımlar etmişik. Qurbanlar kəsmişik. Hesab edirdik ki, kəsilən qurbanların savabı düşmən güllələrinin qarşısına sipər çəkir"

"Milana hospital"ın baş direktoru Xuraman Muradova onu da diqqətə çatdırdı ki, yazıçı və şairlər xalqımızın ziyalılıq oyarıdır. "Qərara almışıq ki, Yazıçılar Birliyinin Ağsaqqallar Şurasının üzvlərini hospitalımızda təmənnasız müalicə edək. Sizlər bizim üçün çox əziz və qiymətlisiniz...".

*Sərvaz HÜSEYNOĞLU*